# Tarix fənninin tədrisində koqnitiv kompetensiyanın rolu

**Reyhan Əlimədəd qızı Qədirova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** qedirova.reyhan@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. M.M. Əmirov,
p.ü.f.d. D.M. Musayev

**Açar sözlər:** təhsilin məzmunu, kompetensiya, koqnitiv, koqnitiv nəzəriyyələr, idrak prosesləri, tarix fənni, fikri əməliyyatlar, dərs nümunəsi

**Ключевые слова:** содершание образования, компетенция, когнитивностъ, когнитивные теории, когнитивные процессы, история, мыслительные процессы, примеры уроков

**Key words:** the content of education, competence, cognitive, cognitive theories, cognitive processes, History subject, mental operations, sample lesson

Cəmiyyətdə baş verən elmi-texniki tərəqqi təhsilin də müntəzəm yenilənməsini tələb edir. Artıq sırf nəzəri xarakter daşıyan təhsil öz əhəmiyyətini itirməkdədir. Buna əsaslanaraq təhsilin məzmununun formalaşmasında səriştəliliyin vacibliyi ön plana çəkilir. Səriştə əldə olunmuş bilik və bacarıqların praktiki fəaliyyətdə tətbiq olunma qabiliyyətidir. Son illər təhsildə həyata keçirilən islahatların əsas prioritet istiqaməti səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasıdır (1).

Kompetensiyaya əsaslanan təhsil yalnız danışmaq və yazmaqla bağlı olmayıb bilik, bacarıq və fəaliyyətin məcmusu kimi dəyərləndirir. Kompetensiya şagirdlərin əldə etdiyi nəzəri biliyin konkret fəaliyyətdə tətbiqidir. Bu gün bizə informasiyayüklü şagirdlər yox, konkret məsələlər üzrə əsaslandırılmış problemə fərziyyələr irəli sürən, ideyanı praktikada tətbiq edən, öyrəndiyi nəzəri materiallardan qaynaqlanaraq hadisənin nəticəsini qabaqcadan görməyi bacaran və onu konstruktiv qaydada tətbiq etməyi bacaran şəxsiyyətlər yetişdirmək lazımdır. Kompetensiya yalnız bilik və ya yalnız bacarıq deyil. Kompetensiya bilik və bacarıqlar əsasında formalaşan fəaliyyətdir. Kompetensiyalı təhsil şagirdləri gələcək həyata hazırlayan başlıca priotetdir. Müasir təhsil konsepsiyası ənənəvi təlimdən fərqli olaraq koqnitiv bacarıqların inkişafını ön plana çəkir. Koqnitivlik nədir? Nə üçün son zamanlarda təhsilin inkişafı istiqamətində aparılan müzakirələrdə, qəbul olunan dövlət əhəmiyyətli sənədlərdə mühüm yer tutur? Bildiyimiz kimi, fəal/interaktiv təlimdə məzmun standartının fəaliyyət komponenti üç alt komponentdən ibarətdir: koqnitiv, psixomotor və affektiv.

Koqnitivlik - təfəkkürlə bağlı olub anlayışların formalaşmasına, bilikdən nəticələrin çıxarılmasına xidmət edən dərketmə prosesidir (2, s.18-19). Koqnitiv bilik idrak proseslərinin qarşılıqlı əlaqəsi əsasında inkişaf edib formalaşan, tam mənimsənilmiş bilikdir. Öyrədici mühitin təşkili, şagirdlərin yaş, fərdi və psixoloji xüsusiyyətlərinin nəzərə alınması, öyrənənlərin bilik səviyyəsinin müəyyənləşdirilməsi və təlimin ona uyğun qurulması, əyani vasitələrdən düzgün istifadə kimi mühüm məsələlər şagirdlərdə koqnitiv biliyi formalaşdıran amillərdəndir.

Ənənəvi didaktik sistem təəssüf ki, hafizənin təfəkkür və təxəyyül məkanında rolunu görməyib, onu sadəcə olaraq “oxu və yadda saxla” ölçüləri ilə dəyərləndirib. Ənənəvi təhsilə hafizənin epizodik eləcə də prosedur sistemləri məlum olduğu halda semantik hafizənin məna effektlərini psixoloji ölçülərlə dəyərləndirə bilməmişdi. Semantik hafizə daxil olan siqnalların

qavranılan xassələrini deyil, onların koqnitiv referentlərini qeydə alır. Semantik hafizə bilavasitə təfəkkürə qaynaqlanır (3, s.22-23). Təfəkkürün inkişafının ana xəttini fikri əməliyyatlar – analiz, sintez, müqayisə, ümumiləşdirmə, mücərrədləşdirmə təşkil edir. Əgər şagird tədqiq etdiyi mövzunu öz sözləri ilə ifadə edə bilirsə, fikri əməliyyatları tətbiq etməyi bacarırsa bu bilik təfəkkürə əsaslanan tam mənimsənilmiş bilikdir.

Təlimdə koqnitiv taksonomiyanı yaradanlardan B.Blum, C.Gilford, N.Qronland, S.A.Lebedev, M.N.Skatkin, A.A.Maksimova, V.P.Simonov, V.P.Bespalko adlarını qeyd edə bilərik (4, s.25-26). Bunlardan B.Blumun taksonomiyası ən universal bir model kimi tətbiq olunmaqdadır. Koqnitiv nəzəriyyənin əsasını J.Piaje və L.Viqotski qoymuşdur. Piajenin koqnitiv nəzəriyyəsinə əsasən müəllim şagirdlərə hazır biliklər verməməli onları öz biliklərini qurmağa sövq etməli, ruhlandırmalı və qiymətləndirməlidir (5. s.19). Təlimdə yenini dərk etməyin ən vacib vasitələrindən biri şagirdlərdə marağın yaradılmasıdır. Marağın yaradılması ilə şagirdlərin idrak prosesləri fəallaşır və onlar təlimə daha həvəsli münasibət göstərirlər. Belə olduqda öyrənənlərdə bilikləri müstəqil əldə etmək, onu təcrübədə tətbiq etmək, təlimə konstruktiv yanaşmaq imkanı yaranır və təlim daha səmərəli olur. L.Viqotski belə hesab edir ki, şagirdlər öyrənmə prosesində tək iştirak etmirlər. Böyüklər idrakın inkişafında şagirdlərə kömək etməlidirlər. Əgər bilik varsa şagirdlər öyrənmə prosesində istiqamətləndirilməli və yardım almalıdırlar (6).

Fəal dərsdə müəllim fasilitator mövqeyindən çıxış edərək şagirdləri tədqiqata cəlb edir, onların fəaliyyətini istiqamətləndirir. İnteraktiv təlimdə müəllim və şagirdin fəaliyyəti əməkdaşlıq əsasında qurulur. Belə olduqda şagird dərsdə özünü sərbəst, bərabərhüquqlu, yaradıcı sayır. Bu da şagirdlərdə fərziyyələr irəli sürmək, mühakimə etmək, tənqidi düşünmək, mülahizə yürütmək kimi intellektual bacarıqların formalaşmasına zəmin yaradır.

Piaje nəzəriyyəsində müəllimin rolu məhduddursa Viqotski nəzəriyyəsində isə müəllim aparıcı rola malikdir. Piaje dərk etmə inkişafını qarşılıqlı əməkdaşlıq əsasında təlimə üstünlük verirdisə Viqotski təlimin sosial kontekstlərində görürdü.

Şagird şəxsiyyətinin formalaşmasında tarix fənni müstəsna əhəmiyyətə malikdir. Öyrənənlərdə vətənə məhəbbət, vətəndaş mövqeyi, digər xalqlara və ümumbəşəri dəyərlərə hörmət hissi aşılamaq fənnin əsas məqsədlərindəndir. Tarix dərslərinin şagirdlərdə koqnitiv kompetensiyaları formalaşdırmaq imkanları daha genişdir. Öyrənənlər tarix dərslərində koqnitiv bacarıqlar əsasında yeni biliklərlə dayaq biliklər arasında əlaqə yaratmağı bacarır, səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, analiz, sintez, müqayisə, əsaslandırma, əlaqələndirmə, sistemləşdirmə, ümumiləşdirmə və sübut etmə bacarıqlarına yiyələnirlər.

Belə ki, tarixin dərk olunması prosesi faktların mənimsənilməsindən başlayır. Daha sonra şagirdlər təsəvvürlərin yaradılması ilə dövrün mahiyyətini dərk edir. Təsəvvürlər tarixi faktlar əsasında yaranır. Tarixi anlayışların formalaşdırılması idrak nəzəriyyəsi əsasında həyata keçirilir və təfəkkürün forması kimi xarakterizə olunur. Təsəvvürlərdən anlayışlar yaranır. Anlayışlar əsasında şagirdlər tarixi hadisələrin mahiyyətini dərk edir, fikri əməliyyatları tətbiq edə bilirlər (7. s.81-91).

Tədris prosesinin koqnitiv biliklər əsasında qurulması şagirdləri əqli vərdiş və bacarıqlara malik şəxsiyyətlər kimi yetişdirmək imkanı yaradır.

VII sinif Azərbaycan tarixində "Mərkəzləşdirilmiş vahid Azərbaycan dövləti" mövzusunu koqnitiv bilik əsasında quraq. Mövzunun tədrisində əsas məqsəd: - Səfəvilər dövlətinin yaranmasını xəritə vasitəsilə izah etmək

- Şah İsmayılın Həsən padşahla oxşar və fərqli cəhətlərini müəyyən etməkdir.

Müəllim dərsin motivasiya mərhələsində mövzu ilə bağlı vidoerolik təqdim edir və suallar

verir. Daha sonra şagirdlərin dayaq biliklərinə istinad edərək - Azərbaycanda hansı mərkəzləşdirilmiş dövlətlərin olduğunu soruşur. Müəllim şagirdlərin irəli sürdükləri bütün fikirləri lövhəyə qeyd edir daha sonra Azərbaycanda mövcud olan mərkəzləşmiş dövlətləri şagirdlərlə birgə analiz və sintez edir. Dərsin növbəti mərhələlərində dövlətin yaranmasını zəruri edən amilləri, Səfəvi dövlətinin yaranmasının əhəmiyyətini, imperatorluğa çevrilməsini, Səfəvi imperatorluğunun müasir hansı dövlətləri əhatə etməsini, Şah İsmayılın daxili və xarici siyasətini, onun Həsən padşahla oxşar və fərqli cəhətlərini, Səfəvi-Osmanlı münasibətləri kimi məsələlərə aydınlıq gətirirlər. Daha sonra müəllim hər komandaya belə tapşırıq verir: "Müasir Azərbaycan və Türkiyə dövlətlərinin siyasi münasibətlərini xarakterizə edin", "Səfəvilər dövlətinin ərazisini müasir xəritədə təhlil edin, Səfəvilər dövləti hansı müasir dövlətləri əhatə edirdi ". Şagird fəaliyyətinin qiymətləndirilmə və refleksiya mərhələsi komanda üzvlərinin və müəllimin iştirakı ilə həyata keçirilir. Qiymətləndirmənin bu forması şagirdlərin diqqətli olmasına, öz bacarıqlarını müəyyənləşdirməsinə, qiymətləndirməyə daha obyektiv yanaşmasına imkan yaradır.

Verilən tapşırıqlar şagirdlərdə subyektiv düşüncə tərzi, tarixi proseslərə fərqli yanaşma, müasir dövrlə əlaqələndirilmə, müqayisə, mülahizə, mühakimə, əsaslandırma, siyasi təhlil, ümumiləşdirmə, sübut etmə, səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək kimi intellektual bacarıqları formalaşdırmaqla onların təfəkküründə geniş dərketmə imkanı yaradır. Əldə olunan biliyi hər bir şagird özünəməxsus şəkildə təkmilləşdirir, zənginləşdirir və onlardan müəyyən eləcə də qeyri-müəyyən şəraitdə istifadə edir. Koqnitiv kompetensiyaya əsaslanan dərs şagirdlərdə məntiqi, tənqidi, yaradıcı təfəkkürün inkişafına zəmin yaradır.

Kompetensiyalı təhsil əsaslı təhsildir və onun başlıca inkişafı koqnitiv bacarıqlara əsaslanır.

**Məqalənin aktuallığı.** Ümumtəhsil məktəblərində tarix fənninin tədrisində keyfiyyətin artırılması üçün koqnitiv kompetensiyaların işlənməsi problemin aktuallığını təmin edir.

**Məqalənin elmi yeniliyi.** Tarixin tədrisində koqnitiv kompetensiyanın formalaşmasının əhəmiyyəti qeyd edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə müəllimlər, gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

## Ədəbiyyat

1. www/president.az/articles. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası.
2. Əmrahlı L. Koqnitiv psixologiya: dərketmə fəaliyyətinə müasir yanaşma. Bakı, 2018.
3. Əlizadə Ə. Pedoqoji Psixologiya II cild, Bakı, 2010.
4. "Ümumi təhsil kurikulumunun əsasları üzrə təlim" AZTN, Mədəd təşkilatı. Bakı, 2014.
5. Bünyadova F. Konstruktiv təlim: mahiyyət, prinsip, vəzifələr və dərslərdən nümunə. Bakı, 2008.
6.www/sites.google.com/site/wilkesedu510groupc/the-cognitive-development-of-students.
7. Cəbrayılov İ. Azərbaycan tarixinin tədrisi metodikası, Bakı, 2006.

**Р.А. Гадирова**

## Роль когнитивной компетенции в преподавание предмета истории

### Резюме

Статья посвящена процессу обучения на основе когнитивной компетентности в общеобразовательных школах. В статье рассматриваются вопросы воспитания личности, когнитивность, ее значение в преподавании истории а такие теории Пиаже и Выгодского, таксономии обучения и т.д.

**R.A. Gadirova**

## Role of cognitive competence in teaching history

### Summary

This article is devoted to the teaching process based on cognitive competence in general education schools. The personality-oriented education, cognitivity, its importance in teaching history, Piaget’s and Vygotsky’s theories, teaching taxonomies, etc, highlights.

**Redaksiyaya daxil olub:** 08.01.2020